**“Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları” (Çıxarışlar)**

Bu Qaydalar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 aprel tarixli 94 nömrəli qərarı ilə təsdiq edilmişdir. (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 mart tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş əlavə və dəyişikliklərlə).

**3. Ticarət (xidmət) fəaliyyətinə olan ümumi tələblər**

**3.3.** Hər bir ticarət (xidmət) obyektinin giriş qapısında (ön tərəfdə) onun adını, mənsubiyyətini və iş rejimini əks etdirən lövhə asılmalıdır. Fermer mağazalarının lövhələrində əlavə olaraq xüsusi tanıdıcı və fərqləndirici loqotip yerləşdirilməlidir.

**3.3-2.** Etil (yeyinti) spirtinin, alkoqollu içkilərin və ya tütün məmulatlarının satışını həyata keçirən ticarət (xidmət) obyektlərinin giriş hissəsində etil (yeyinti) spirtinin, alkoqollu içkilərin və ya tütün məmulatlarının yetkinlik yaşına çatmayanlara satılmasının qadağan edildiyini əks etdirən elan yerləşdirilməlidir.

**5. Malların satışına olan ümumi tələblər**

**5.1.** Topdansatış ticarət obyektlərindən mallar hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə müqavilələr əsasında satılır. Topdansatış ticarəti ilə məşğul olan ticarət obyektlərində malların pərakəndə satışı qadağandır. Pərakəndə ticarət sahəsində fəaliyyət göstərən təsərrüfat obyektlərindən, hüquqi və fiziki şəxslər tərəfindən pərakəndə qaydada alınmış ərzaq mallarının, o cümlədən spirtli və spirtsiz içkilərin, tütün və tütün məmulatlarının sonradan pərakəndə satışı qadağandır.

**5.7.** Satıcı istehlakçıların düzgün seçim etməsini təmin etmək üçün mallar, onların istehsalçıları haqqında zəruri və düzgün məlumat verməyə borcludur. Satışa çıxarılan malların reklamı “Reklam haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olmalıdır.

**5.7-1.** Tütün məmulatlarının buraxılmasını bilavasitə həyata keçirən şəxs (satıcı) tütün məhsulunu istifadə edən şəxsin (alıcının) yetkinlik yaşına çatmasına şübhə etdikdə, satıcı alıcıdan onun şəxsiyyətini təsdiq edən və yaşını müəyyən etməyə imkan verən sənəd tələb edir.

**7. Çörək-bulka məmulatlarının satışının xüsusiyyətləri**

**7.11.** Məmulatların spesifik qoxulu mallarla (balıq və balıq məhsulları, tütün məmulatları, təsərrüfat malları və s.) birlikdə saxlanılması qəti qadağandır.

**23. İctimai iaşə xidmətlərinin göstərilməsi**

**23.1.** İcraçı istehlakçılar üçün qanunvericiliyə zidd olmayan davranış qaydalarını müəyyən etmək (tütün çəkilməsinin məhdudlaşdırılması, salona daxil olarkən üst geyiminin girişdə qarderoba təhvil verilməsi və s.) hüququna malikdir.